# Çiçək qədər güclü

**GÜLŞƏN ADIŞOVA**
***BDU-nun Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə II kurs tələbəsi***

Yağışlı bir payız günü. Hər tərəf təbiətin qəzəbinə tuş gəlib. Binaların su borularından şəlalə axır. Piyadalar əllərində çətir harasa tələsirlər. Qara, qəhvəyi, boz çətirlər onsuz da qəmgin olan bu payız gününü daha da solğunlaşdırır. Küçə boyu irəliləyən qara paltolu adamın çətiri olmadığına görə üst-başı su içindədir. Əlləri ciblərində, yağışa fikir vermədən səki boyu irəliləyən bu adam bir-bir mağazaların, kafelərin yanından ötüb keçir. Getdikcə də içəridə isti qəhvədən zövq alan insanlara diqqət yetirir. Necə də xoşbəxt və rahat görünürlər... Bəlkə də, heç problemləri yoxdur. Burda rahat-rahat yağışı seyr edərək qəhvələrini qurtumlayacaq, küçədə islanmaqdan yaxa qurtarmaq istəyən qaçışan adamlara baxacaq, istədikləri vaxt da qalxıb avtomobilə minəcək və ən az bura qədər rahat və isti olan evə yollanacaqlar. Qara paltolu adam isə soyuqdan titrəyə-titrəyə heç getmək istəmədiyi evinə gedir. Kafelərin, restoranların yanından keçdikcə yeni bişmiş ət qoxusu, kofelərin ətri burnunu qıcıqlandırır. Amma neyləmək olar?! Onun bunlardan zövq almaq imkanı yoxdur. Buna görə də ac mədəsinin yalvarışlarına fikir vermədən sürətlə irəliləyir. İrəlilədikcə də ona əzab verməsinə baxmayaraq, restoranların içərisində əyləşən adamlara baxmadan dura bilmir. İçəridə gözəl geyimli bir qadın öz ağ və yumşaq tüklü pişiyini qucağına alıb sığallayır, ona nə isə yedirir. Qara paltolu adam özündən asılı olmadan kinayə ilə gülümsəyir. Saqqal basmış üzündəki bu gülümsəmə qorxu filmlərini xatırladır. İri, qara və yorğun gözləri var. Uzun və yöndəmsiz burnu arıq sifətinə çox uyğundur. Nimdaş papağının altından çıxan saçlarının həftələrdir kəsilmədiyinə şübhə yoxdur. Boyu uzun olsa da, çox çəlimsizdir. Qara, uzunburun çəkmələrinin uzun müddətdir cilalanmadığı və kənarlarının qopduğu açıq-aşkardır. Ancaq o, bunlara qətiyyən fikir vermədən irəliləyir. Yolun kənarındakı marketi ötüb keçdikdən sonra yadına nə isə düşübmüş kimi qayıdır və ora daxil olur. İki dəqiqədən sonra paltosunun altından tutduğu çörəklə yoluna davam edir. Arabir ətrafa baxır, heç kimin ona fikir vermədiyinə əmin olduqdan sonra çörəkdən qoparıb çeynəməyə başlayır. İçəri batmış ovurdlarında çörəyi sağa-sola keçirərək çeynəyir, hədəqəsindən çıxan gözlərini qəzəb və maraq hissi ilə ətrafdakı adamlara

zilləyir. Qarşısına çıxan ilk döngədən sola və sonrakından sağa dönür. Bu çox kiçik və kasıb bir məhəlləyə oxşasa da,evlər çox gözəl görünür. Sanki hər bir daşından tarix axır bu evlərin. Hava tutqun olduğundan daş divarlar daha heybətli və kimsəsiz görünür. Evlərin pəncərələrindən bayıra işıq düşsə də, bu küçədəki yalnızlığı azaltmır. Qara paltolu adam işıq düşən pəncərələrin yanından ötüb keçir. Sonra isə yolun kənarındakı kiçik qapıdan içəri keçir. Eni bir metr olmayan dar cığırla addımlayır və kiçik evin qapısına yaxınlaşır. Paltosunun cibindən çıxardığı açar ilə qapını açır və buz kimi soyuq otağa daxil olur. Kiçik, soyuq və demək olar ki, içərisində əşya olmayan otağa. Bu otaqda sadəcə kiçik bir masa, stul və qırıq divandan savayı bir şey yoxdur. Qara paltolu adam paltosunun altında yağışdan qoruduğu və yarısını yediyi çörəyi çıxarıb stolun üstünə qoyur. Otaq soyuq olduğuna görə paltosu əynində divanda əyləşir və sadəcə boş divara tamaşa etməyə başlayır. Köhnə və tozlu pərdə asılmış pəncərədən düşən azacıq işıq otağı görməyə kifayət edir. Qara paltolu adam isə hərəkətsiz şəkildə divara baxmağa davam edir. O cismən bu otaqda olsa da,fikri 10 il bundan əvvəldədir.

Üzərində tər-təmiz süfrə sərilmiş dəyirimi stolun arxasında əyləşib. Qarşıda isə anası və özü. Ancaq bir az fərqlidir. Çox cavan və gümrah görünür. Anası isə olduqca gözəldir. Gəncliyini heç vaxt itirməyən çöhrəsindən ana şəfqəti duyulur. Qara paltolu adam başını qaldırıb evlərinə baxır. Anasının qabları düzülmüş şkaf, divardan asılmış, içində ağ və qırmızı çiçəklər olan dairəvi saat, mərhum atasının şəkli, otağın küncünə qoyulmuş kiçik televizor, tər-təmiz yaşıl pərdə asılmış böyük pəncərə, naxışları ilə göz oxşayan xalça. Bütün bunlar o qədər yaxındadır ki, sanki həqiqətdir. Anası ilə qarşılıqlı əyləşib yemək yeyir. O oğlundan bir iş tapmağı, heç olmasa, müəllimliyi davam etdirməyi xahiş edir. Gənc və gümrah oğlan isə elə hey dayanmadan yazıçı olacağını, başqa bir işin ona görə olmadığını təkrar edir. Qara paltolu adam onlara baxır, amma onlar onu görmürlər. Sanki görünməzdir, bütün ömrü boyu olduğu kimi. Gözlərini yumur. Bu dəfə nəşriyyat müdiri ilə üzbəbüz oturan gəncliyini görür. İşıq saçan gözlərində qəzəb parıltısı var. Nəşriyyat müdiri elə hey onun kitabının nəşr etmək üçün kifayət qədər yaxşı olmadığını desə də, o sadəcə qarşıdakı masaya baxaraq yumruğunu sıxır. Bu, bəlkə də, rədd edilən onuncu kitabıdır. Ancaq qara paltolu adam artıq onların sayını itirib. Bəlkə də, iyirmincidir. Nə əhəmiyyəti var ki?! Qara paltolu adam bir də gözlərini yumur, yenə evlərindədir. Ancaq tək deyil. Ətrafında çoxlu qadınlar və ortada anasının nəşi var. Qarşıda oturan gənc oğlanın gözləri qan-yaşla doludur. Sanki bir gün içərisində illərlə qocalıb. Ən yaxın insanının ölüsünə baxır, amma əlindən heç

nə gəlmir. Ölümü qavramağa çalışır. Onu bir də görməyəcəyini. Amma beyninə yerləşdirə bilmir. Gözlərini yumur qara paltolu adam. Bu dəfə isə küçənin tinində sevgisini etiraf edəcəyi qızın evinin qapısına tamaşa edir. Əlində gözəl bir qızılgül var. Ancaq onu elə bərk sıxır ki, tikanlarının batdığı yerlərdən qan damcılayır. Qara paltolu adam evə tərəf baxır. Evin qapısına qırmızı lent var. Cavan oğlan artıq gecikib. Gözlərini yumur qara paltolu adam. Yenə həmin daxmadadır. Burnunun ucu soyuqdan donur. Otaq qaranlığa qərq olub. O, qırıq divandan qalxıb kağızlarla dolu masaya yaxınlaşır. Şam və kibrit tapır və otağı az da olsa, işıqlandırır. Masanın üstünə qoyduğu çörəkdən bir tikə qopardaraq çeynəməyə başlayır. Bu vaxt uzun zamandır işlətmədiyi lampanın yanındakı əyri dəmirə baxır. Gedib onun bərkliyini yoxlayır. Ağırlığını saxlayacaq qədər möhkəmdir. Ancaq ipi yoxdur. Öləcək qədər də imkanı olmaması ağlına gəlir, otağın ortasında bərkdən gülməyə başlayır. Elə bərk gülür ki, eşidən onun dəli olduğunu düşünər. Elə bu vaxt pəncərənin yuxarı künclərindəki mismarlara yöndəmsizcə bağlanan pərdənin ipini görür. Masaya yaxınlaşır və boyu uzun olduğuna görə asanlıqla kəndiri aça bilir. Şamın işığı hava dalğasından titrəyir. Pərdəni kəndirdən ayırdıqdan sonra onu otağın küncünə atır. Kəndir də kifayət qədər möhkəmdir. Onu lampanın yanındakı dəmirə bərkidir və masanın arxasındakı stulu düz ipin altına qoyur. Stulun üstünə çıxır. Əvvəllər heç vaxt belə bir şeyə cəhd etmədiyinə görə ipi hazırlamaq üçün bir xeyli əlləşir. Nəhayət ki, bacarır. Otuz iki illik ömrünü başa vurduğu soyuq və çirkli evə ötəri nəzər salır.Kəndirə bir də baxır və boynuna keçirmək üçün yuxarı qaldırır. Deyəsən, heç də xoş olmayan film başa çatır. Həyat onu çox az xoşbəxt edib. Buna görə heç kimə, hətta özünə belə qəzəbli deyil. Hər şey necə lazımdırsa, elə də olub. Əgər yenidən gələ bilsə idi bu həyata, yenə də eyni şeyləri edəcəkdi. Bəzilərinin bəxti gətirir, digərlərinin yox. O bu yolu özü seçib. Çətin olacağını da bilirdi, amma nə etmək olar?! Dovşan kimi davranmaq canavarın təbiətinə xas deyil. O bu oyunda uduzdu, amma mənliyinə qarşı kiçik də olsa, heç bir səhv etmədi. Düz yaşadı, “düz”də ölür. İpi əlləri ilə başına yaxınlaşdırır. Artıq çənəsinin yanındadır. Ölümə bir santimetr qalıb. Elə bu an düşüncələrə dalıb bir ayağının qırıq olduğunu unutduğu stulun arxa ayağı iki hissəyə parçalanır. Qara paltolu adam otaq boyu yerə sərilir. Bu həyatın ona ilk zərbəsi deyil. O bayaq olduğu kimi qəhqəhə çəkməyə başlayır. Həyat ona istədiyi kimi bir ölümü belə çox gördü. Artıq onu incitməyə başlayan bu gülüşü dayandırmağa qərar verir. Bu dəfə isə gözləri sözünə baxmır. Yanaqlarından süzülən göz yaşları dodaqlarına çatınca buza dönür. Birdən o divar ilə döşəmə arasındakı kiçik deşikdən boylanan sarı çiçəyi görür. Qaranlıq olduğuna görə onu tam seçə bilmir. Ayağa

qalxıb masanın üstündəki şamı gətirir və yerə uzanaraq çiçəyə tamaşa etməyə başlayır. Beş ədəd sapsarı ləçəyi, biri yuxarıda, digəri aşağıda uzunsov yaşıl yarpaqları var. Çox gözəl və zərif görünür. Bitdiyi deşiyin isə vur-tut yarım santimetr eni olar. Qara paltolu adam istəsə, onu bir barmağı ilə əzib məhv edə bilər. Amma çiçəyin iradəsi qarşısında südəmər körpə qədər gücsüzdür. Qara paltolu adama anası, dostları həmişə dəstək olmuş, çətinliyə düşəndə ona əl tutmuşdular. Amma o bu zərif və bir o qədər güclü çiçəyə heç vaxt bir damcı da olsa, su verməyib. Çiçək bu kiçik və baxımsız yerdə bitməyə də bilərdi. Amma o, bütün çətinliklərə baxmayaraq, qalxmağı seçmişdi. Hər addımı daha inamla və güclü atmışdı. İndi isə qarşısında yerə çökmüş bu adama meydan oxuyurmuş kimi dimdik dayanıb. Qara paltolu adam uzunluğu iki santimetrdən çox olmayan bu çiçək qarşısında alçaldığını hiss edir. Heyranlıqla ona tamaşa edir və bütün həyatını gözü önünə gətirir. Ona verilən şansları necə əldən verdiyi, hər kiçik uğursuzluqda necə bədbinləşdiyini yada salır. Həyatı boyunca özünü bədbəxt hesab etdiyini ilk dəfə bu gün etiraf edir. Həmişə istədiklərinin olmamasını o qədər böyük kədərlə qarşılayardı ki, olanların onun üçün daha faydalı olduğu düşüncəsini ağlına belə gətirməzdi. Amma bu gün özünü necə bu kökə saldığını başa düşür. Özü də bapbalaca bir çiçəkdən dərs alaraq. İki metrə yaxın olan bədənində iki santimetrlik çiçəkdə olan qədər güc yoxdur...

Narın-narın yağış yağır. Su borularından damcılayan yağış səssizliyi pozur. Kiçik evin pəncərəsindən zəif şam işığı görünür. Masanın arxasında əyləşən qara paltolu adam isə əlində qələm, böyük bir sevinclə nə isə yazır. Çöldən baxanda yalnız səhifənin yuxarısında böyük hərflə yazılmış başlıq seçilir: “Çiçək qədər güclü”....